*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 457-466*

https://doi.org/10.62837/2026.4.457

**ZÜMRÜD İBRAHIM QIZI MƏNSIMOVA**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA-nın İctimai Elmlər Bölməsinin elmi katibi*
**E-mail:zumrudibrahimqizi@gmail.com**
0000-0002-8529-9018

# OĞUZNAMƏLƏRDƏ ƏCDADIN ADLANDIRMA FUNKSİYASI (ƏCDAD KULTU KONTEKSİNDƏ)

## Xülasə

Məqalədə Oğuznamə ənənəsində əcdadın adlandırma funksiyası və onun mifik-düşüncə sistemindəki yeri araşdırılır. Göstərilir ki, advermə prosesi fərdin sosial statusunu, kimliyini və cəmiyyətə daxilolma mexanizmini müəyyənləşdirən mühüm ritualdır. Adqoymanın mərasim//ritual vasitəsilə gerçəkləşməsi əcdad kultu ilə bağlıdır. "Oğuz Kağan" və "Kitabi-Dədə Qorqud" kimi dastanlarda advermə əcdad kultu ilə sıx bağlı olub, qəhrəmanların igidlik və mənəvi keyfiyyətlərinə əsasən həyata keçirilir. Tədqiqatda Dədə Qorqudun və digər sakral xüsusiyyətlərini advermə funksiyasının ilahi və kosmoqonik məzmun daşıdığı vurğulanır. Ad alma mərasimi gəncin inisiasiya mərhələsi kimi çıxış edərək onu cəmiyyətin tamhüquqlu üzvünə çevirir. Eyni zamanda, adın insan taleyi ilə əlaqəsi və onun əcdadlar dünyası ilə bağlılığı folklor materialları əsasında təhlil olunur. Nəticədə müəyyən edilir ki, adlandırma funksiyası Oğuz mədəniyyətində dünya nizamının qurulması və sosial iyerarxiyanın formalaşmasında əsas mexanizmlərdən biridir.

**Açar sözlər:** *Əcdad kultu, Oğuz xaqan, Dədə Qorqud, Oğuznamə, adlandırma funksiyası*

**Giriş:** Hər bir xalqın tanınmasında və onun varlığının ifadə olunmasında tarixi-mifik qəhrəmanlar mühüm rol oynayan ortaq mənəvi dəyərlər kimi çıxış edir. Çox zaman əcdad qəhrəmanlar kimi bu ali şəxslər yalnız mifoloji obrazlar deyil, eyni zamanda xalqın dünyagörüşünü, ictimai-siyasi düşüncəsini və əxlaqi prinsiplərini özündə əks etdirən simvollardır, xalqı önə çəkib arxasında aparan liderlərdir.

Məsələn, xalqlara ad verən, onları idarə edən, sosial nizam yaradan və doğru yol göstərən lider obrazları kimi Oğuz xan, Bayandur xan və Dədə Qorqud kimi şəxsiyyətlər xüsusi əhəmiyyət kəsb edir. Bu obrazlar vasitəsilə cəmiyyətin idarə olunması, ədalət prinsipləri və milli - mənəvi dəyərlər, vətənpərvərlik, elə-obaya,

müqəddəs torpağa sonsuz məhəbbət hissləri nəsildən-nəslə ötürülərək qorunub saxlanılır.

"Oğuz kağan" dastanında Oğuz Kağan tayfalara ad verir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud igidlik, qəhrəmanlıq göstərən ərlərə ad verir. Ərlər müəyyən adlarla adlandırmaqla Oğuz kosmosuna daxil olurlar. Dədə Qorqudun yaradıcı funksiyası ondan ibarətdir ki, o, nəsnələri, insanları, tayfaları adlandırmaqla onları Oğuz cəmiyyətinin legitim üzvünə çevirir. Oğuz Kağan daha nəhəng miqyasda qurucudur: o, Oğuz xalqını üçok və bozok tayfalarına bölür.

Oğuzun oğlanları ad aldıqdan sonra sağ və sol qanadlara bölünürlər və bununla onların sosial-siyasi sistemdə ierarxik mövqeyi müəyyənləşir. Bunu eyni ilə Buğacın, Beyrəyin, Basatın ad aldıqdan sonra Bayındır xanın, yaxud Qazan xanın divanında tutduqları yerlər də təsdiqləyir. Bu fakt göstərir ki, oğuzlarda adlandırma əcdad kultu ilə sıx şəkildə bağlıdır.

Ümumiyyətlə, övlada düzgün ad seçilməsi ənənəvi düşüncədə başlıca amil olmuşdur. Düşünülmüşdür ki, ad insanın gələcək həyatını, yaşamını şifrələyir. Bu təkcə Azərbaycan xalqına deyil, digər xalqlara da aid olan haldır. Məsələn, "Qabusnamə"də adın xüsusən oğlan övladına düzgün ad seçilməsinin fəzilətlərindən söz açılmışdır [7, s. 163].

**Əsas hissə:** Dastanlarımızda, nağıllarımızda adın müqəddəslər tərəfindən qoyulması təsadüfi deyildir. Advermə Oğuz dastançılığında geniş yayılmış motivlərdən biridir. Ad alan hər bir yeniyetmə nəinki cəmiyyətin bərabərhüquqlu üzvünə çevrilir, həm də adına görə yaşamalı olur. Advermə funksiyasını ilk çağlarda tayfa ağsaqqalları, ağ şamanlar, müsəlman ənənəsində isə övliyalar yerinə yetirmişlər. Bəzən dünyasının deyişmiş adlı-sanlı şəxslərdən birinin adını yeni doğulmuş oğlan uşağına qoyarkən deyərdilər ki, "Filankəsin adına layiq oğullardan olasan", "Torpağı sanı yaşayasan", "Torpağı qədər şanı yaşasın"., "İgid ölsə də adı-sanı 7 arxa dönənin dar günündə, şad günündə karına gəlsin" və.s. bu kimi kəlamlar və alqışlar mərhumu xatırlama yolu ilə uzun ömür diləmək mənasında işlədilən ifadə, nitq etiketidir.

Əsasən, doğum mərasiminə aid olan adqoyma mərasimi Azərbaycan xalqının adətlərində, qədim dastanlarında mühüm yerlərdən birini tutur. Adqoyma mərasim şəklində düzənlənən adlandırma mərasiminin nişanələrinə biz "Kitabi-Dədə Qorqud" dastanında təsadüf edirik. Bu gün Azərbaycanın bir sıra bölgələrində qədimdən gələn ad qoyma ənənəsi müəyyən şəkildə özünü qoruyub saxlamışdır. Ad vermə əsasını ritual şəklində, daha dəqiq desək, adqoyma mərasimi ilə gerçəkləşir.

Adqoymanın mərasim//ritual vasitəsilə gerçəkləşməsi əcdad kultu ilə bağlıdır. Çünki ritual bu dünyada yaşayan insanla əcdadlar arasında əlaqənin həyata keçirilmə formasıdır. S.Rzasoyun fikrincə, ritualda təcəssüm olunan ideal struktur sxemi ilk əcdadla bağlı yaradılış aktını əks etdirir: *"Oğuz elinin də özünü bir xalq, etnos kimi yaşatmasının, qorunmasının yeganə forması idi. Oğuz rituallarının strukturunu*

*onların müqəddəs saydıqları ulu əcdad Oğuz xanın buyruqları və davranışları təşkil edirdi. Oğuz xandan qalma ritualların hamısı oğuzlar üçün müqəddəs idi. Oğuzlar öz varlıqlarını bu rituallar vasitəsi ilə yaşadır və var edirlər"* [8, s. 31].

"Kitabi Dədə Qorqud" dastanına diqqət edək: "Dirsə xan arvadının sözü ilə böyük məclis qurdurdu, Allahdan istəyini dilədi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç oğuz, Daş oğuz bəylərini ora topladı. Ac gördüsə, doydurdu. Yalın Gördüsə, geyindirdi. Borclunu borcundan qurtardı. Təpə gimi ət yığdı. Göl gimi qımız sağdırdı. Əl götürüb arzularını dilədilər. Allah bir ağzı dualının alğışı ilə övlad verdi. Arvadı hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan doğdu. Oğlançığı dayələrə verdi, saxlatdı... At ayağı iti, ozan dili çevig olur. Yiyəsi olan yekəlir, qabırğalı böyüyür. Oğlan on beş yaşına girdi. Oğlanın atası köçüb Bayındır xanın adamlarına qarışdı" [6, s. 133-134].

Göründüyü kimi, Buğacın doğuluşu mərasim vasitəsilə baş tutur. Tanrı Dirsə xana bir övlad bəxş edir. Bu, oğuzlarda mərasimlərin nə qədər böyük rola malik olduğunu göstərir.

Buğac 15 yaşına catanda isə buğa ilə vuruşur, onu məğlub edir. Dədə Qorqud gəlib ona ad qoyur: "Oğuz bəyləri gəlib, oğlanın başına toplaşdılar, əhsən dedilər. "Dədəm Qorqud gəlsin, bu oğlana ad qoysun; özüylə götürüb, atasının yanına getsin. Atasından oğlana bəylik istəsin, təxt alıb versin", - dedilər. Çağırdılar, Dədə Qorqud gəldi. Oğlanı götürub atasının yanına getdi. Dədə Qorqud oğlanın atasına söyləmiş, görək, xanım, nə söyləmiş - demişdir. Bu oğlan Bayındır xanın uca meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldurmüşdür, qoy adı "Buğac" olsun. Adını mən verdim, yaşını allah versin, - dedi. Dirsə xan oğlana bəylik verdi, taxt verdi" [6, s. 134].

Diqqət etsək görərik ki, övladın dünyaya gəlməsi müəyyən ritualların gerçəkləşməsi sayəsində həyata keçirilir. Oğlan 15 yaşına qədər xüsusi ada malik olmur. 15 yaşında igidlik göstərib, ad qazanmalıdır. Ona igidlik adını elin ağsaqqalı verməlidir. Ad verilən Buğaca eyni zamanda Oğuz elinin ağsaqqalı Dədə Qorqud tərəfindən bəylik istənilir.

Dədə Qorqudun advermə funksiyasının dərin mənaları vardır. Lakin M.Seyidova görə, advermə Dədə Qorqudun əsas funksiyalarından yalnız biridir [9,s. 35 s.]

Advermə məsələnin görünən tərəfidir. Qorqud adı özündən vermir: o, adı əcdadlar dünyasından, Ğaib aləmdən alır. Bunu Murad Urazın yakutlarda qəhrəmanlara ad qoyan Günəşin adları göydən yollaması haqqında verdiyi məlumat da təsdiq edir Bu fakta əsaslanan M.Seyidov Qorqud obrazının Günəşlə bağlı olması qənaətinə gəlmişdir [10, s. 180].

Avermə mərasiminin olması üçün səbəb lazımdır. K.Əliyev yazır ki, *"Dədə Qorqud" eposunda... adqoymanın səbəbi var və bu, hər hansı bir mərasimlə, yaxud hadisə ilə bağlıdır"* [3, s. 15]. Həmin mərasimlə ad almış fərdin cəmiyyətdə yeri,

rolu və statusu dəyişir. F.Bayatın qeyd etdiyi kimi, *“anadan olanda uşağa, bəzən də igidliyə, hünərə görə yeniyetməyə xüsusi ad qoyulması mərasimidir. Advermə köçəri türk mədəniyyətində bütöv bir sistemdir. Ad yaş kateqoriyasından asılı olaraq dəyişir. Deməli, ad həm yaşla, həm də sosial statusla bağlı dəyişir”* [1, s. 9-10].

Adın Azərbaycan ənənəvi düşüncəsində nə qədər önəmli və şərəfli olduğunu “Koroğlu” dastanında da görürük. Alı kişi oğluna dedi: “Bala ay keçər il dolanar, sənin adın məğribdən məşriqətən bütün dünyada məşhur olar. O köpükdən sənin qollarına qüvvət, özünə şairlik, səsinə, nərənə qüvvət verildi. Bəylər, xanlar, paşalar sənin adın gələndə qarşında diz çökəcəklər” [12].

Oğuznamə ənənəsinin orta əsrlərdə davamı olan bu dastandan da göründüyü kimi, Koroğlunun adı əcdadlar aləmi ilə bağlı bir çox amillərlə bağlıdır. Bu, Koroğlu adının özündən də görünməkdədir. Koroğlu adındakı “kor” sözü mifik mənşəyə malik olan bu qəhrəmanı əcdadlar dünyası ilə bağlayır. Kor – qaranlıq, ölüm, o biri dünya, ölülər dünyası mənasındadır. Əcdadlar da o biri dünyanın, yəni ölülər dünyasının sakinləridir. Korun oğlu olmaq mifik mənada əcdadlarla birbaşa əlaqədə olmağı işarələyir. Lakin digər amillər də vardır.

Müdrik ata duası, qoşa bulağın köpüklü suyu, dərya atları cinsindən olan Qırat və Dürat, və Misri qılınc... Bunlar igidin adı və sanının qorunmasında əsas amillərdəndir və hamısı birlikdə əcdadlar dünyası ilə bağlıdır.

Koroğlu adı Rövşəni yeni dünyaya – qəhrəmanlar dünyasına daxil edir. Eləcə də Buğac bəylik statusunu alandın sonra tayfa başçısına çevrilir. Göründüyü kimi, ad özü ilə birgə igidliyi, şanı-şöhrəti, bəyliyi də gətirmiş olur.

Advermə Azərbaycan folklorunda, dastançılıq ənənəsində dastançılığında geniş yayılmış motivlərdən biridir. Həm də advermə Azərbaycan folklor ənənəsində çox çətin, şərəfli və məsuliyyətli məsələdir. Advermə prosesini ilk zamanlar evin, elin və nəslin ağsaqqalları, övliyalar yerinə yetirirdilər. Əski inanclara əsasən, adla insan taleyi, ömür arasında bir bənzərlik, eyniyyət vardır. Bu səbəbdən yeni doğulmuş oğlan uşağına hər adamın ad verməsi mümkün deyildi. Ad özündə qəhrəmanın kökünü, mənşəyini, 7 arxa dönəni, yurd-yuvasını, xarakterizə etdiyindən sosial status idi.

Oğuz elinin qəhrəmanları əməlinə görə ad alırlar. Dədə Qorqudun Oğuz igidlərinə ad qoyması xüsusi mərasim olduğu kimi, eyni ilə şor dastanlarında, qırğız dastanı “Manas”da ad verən ya cəmiyyətə kənardan gəlir, ya da ağ paltarlı şəxs olur. Hər iki funksiya şamana və bir qədər də xalq sufi dərvişinə aiddir. Nağıllarda qəhrəmana ad verən dərviş də, əslində, şamanın müsəlman adekvatıdır. “Oğuznamə” dastanından bilirik Oğuz xaqan özü özünə ad qoyur, bu, çox təbii ki, onun ilk əcdad və mədəni qəhrəman kimi birbaşa vəzifəsidir. Qeyd olundu ki, mədəni qəhrəmanların əsas vəzifələrindən biri insanlara, tayfalara, xalqlara, yerlərə və s. ad verməkdir. Oğuz kağan da, göründüyü ki, advermə fəaliyyətinə ilk olaraq özünə ad verməkdən başlayır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 457-466*

F.Bayata görə, dastanlarda adqoyma ritual səciyyəli olub, inisiasiya mərasiminin tərkib hissəsidir. Adalma bir gəncin kişilər cəmiyyətinə daxil olmasıdır. Şaman mətnlərində şaman olma mərasimindən sonra şamanın ad alıb şaman kimi yenidən qurulması dastanlarda qəhrəmanın yeni ad alıb, yeni status qazanması ilə üst-üstə düşür. *"Eyni ritual aktının Altay-Sayan xalqlarının dastanlarında, özbək, qazax, qırğız folklorunda, bütün türk folklorunda təkrarlanması bunun etnoqrafik baxımdan gənc döyüşçü cərgəsinə qəbul mərasiminin qalığı kimi yozulmasına imkan verir. Belə mərasimdə gənc döyüşçüyə adla yanaşı at, qılınc və kəmər də verirdilər"* [1,s. 9-11].

Buna nümunə olaraq Azərbaycan şimal bölgəsindən-Zaqataladan topladığımız "Ağsaq" ata mifində saqların hökümdarının adətiymiş ki, bütün döyüşçülərini ruhlandırmax məqsədilə döyüşdən qabax simvolik olaraq ya kəmər yaxud da qılınc bağışlardı. Döyüşdən soram isə igidılıx göstərənlərə ad verriymiş" [4]. Bu digər tərəfdən əcdar kultunun hökümdar paradiqmasının sahiblənmə və nümunə olma və böyüklük qüdrətini simvolizə edir.

Diqqət etsək görərik ki, məhəbbət dastanlarında adı qoyan müdrik qocalardır. Məsələn, "Qurbani" dastanında "Mirzalı xan ac qarınları doyurdu, çılpaq əyinləri geydirdi.Sonra uşağa ad qoymaq istədilər. Bir ağıllı qoca kişi gəlib dedi:

– Oğlanın adını mən qoydum – Qurbani. Çünki, bunu qurbanla tapıbsınız" [13].

Yaxud "Lətif şah" dastanında dərvişin verdiyi alma ilə dünyaya gələn uşaq 10 yaşına çatandan sonra onun adını həmin dərviş gəlib qoyur.

Advermədə təbiət ünsürlərinin iştirakı da əcdad kultu ilə bağlıdır. Demək olar ki, Azərbaycanın əksər bölgələrində ad körpənin sağ qulağına 7 dəfə deyilir. Oğlan körpəsində isə bundan sonra sünnət mərasimi keçirilir, uşaq xeyir-dua üçün yerli pirə aparılır. Nabranda ən çox hörmət edilən pir bulaq yanında yerləşən yaşlı palıd ağacıdır. Uşağa bu bulaqdan su verilir və uşağın sağlam olması üçün ağaca sap bağlanır. Burada bulaq (su) və ağac ünsürlərini görürük. Bunlar, əslində, totem əcdad inancının qalıqlarıdır. Yəni uşağın ad almasında təbiət ünsürləri olan totem əcdadlar da iştirak edirlər.

Akademik İsa Həbibbəyliyə görə, "Dirsə xan oğlu Buğac boyu"nda "dəmir zəncirli buğa" ilə təkbətək "vuruşda" buğanı öldürdüyü üçün Dirsə xanın oğluna Buğac adının verilməsi Dədə Qorqud boylarındakı və bütün təfsilatı ilə təsvir olunmuş ilk adqoyma mərasimidir. Bu mərasim həm də mühüm tərbiyəvi əhəmiyyətə malik olan bir aksiyadır. Bu adət Oğuz nəsillərini igidliyə, qəhrəmanlığa istiqamətləndirən dərslərdir. Qalın Oğuz Eli qaydalarına görə, cavanların göstərdikləri igidlik, qoçaqlıq yalnız güc göstərmək deyil, ilk növbədə elin mənafelərinə uyğun gələn addım olmalı idi. İkincisi isə müdrik Dədə Qorqudun adqoyma mərasimində söylədiyi tərbiyəvi fikirlər Oğuzun gələcək nəsilləri üçün "tərbiyə məktəbi" funksiyasını daşımışdır: "Baybörə Qalın Oğuz Beyrək bəylərini

çağırdı, qonaq etdi. Dədəm Qorqud gəldi, oğlana ad qoydu. Dedi: "Sözümü dinlə, Baybörə bəy! Allah-təala sənə bir oğul vermişdir, əlində qalsın! Ağır bayraq götürəndə müsəlmanlara arxa olsun. Qarşı yatan uca qarlı dağlardan aşarsa, Allah sənin oğluna keçid versin. Coşğun sulardan keçərsə, keçid versin! Kafir qoşununa baş vuranda Allah təala sənin oğluna fürsət versin! Sən oğlunu "Bamsım" – deyə oxşayasan. Onun adı Boz ayğırlı Bamsı Beyrək olsun! Adını mən dedim, yaşını Allah versin! Qalın Oğuz bəyləri əl götürüb ona dua etdilər. "Bu ad bu igid üçün uğurlu olsun" – dedilər. *"Göründüyü kimi, "Dirsə xan oğlu Buğac boyu" ilə müqayisədə "Bamsı Beyrək boyu"nda təsvir edilən adqoyma və xeyir-dua mərasimi həcm etibarilə yığcamdır"* [5 , s. 148].

Dastanlarda advermə mərasimlərinə geniş şəkildə rast gəlinir. Bu motiv bütün türk dastanlarında var. Burada əsas fiqur ad alanla yanaşı və daha çox adverəndir. Bunun başlıca səbəbi adı müqəddəs şəxs, müdrik qoca tərəfindən qoyulan oğul atadan sonra xalqına, elinə, obasına başçılıq edəcəkdir. Bu cəhətdən, əcdad kultu ilə bağlı ad verən ad alanı ilahi himayə altına almış olur.

"Edigey" dastanında qəhrəmanın adının el ağsaqqalı və mənəvi nüfuz sahibi olan piri Cantimir tərəfindən verilməsi onun xüsusi missiyaya malik seçilmiş şəxs kimi təqdim olunduğunu göstərir. Bu advermə aktı qəhrəmanın yalnız fərdi kimliyini deyil, həm də elin xilasedicisi kimi daşıdığı müqəddəs funksiyanı müəyyənləşdirir. Digər tərəfdən, bəzi qəhrəmanların adlarının xan ata tərəfindən verilməsi onların daha çox sosial-məişət müstəvisində qalan, ümumi qəhrəmanlıq statusuna malik, lakin xüsusi sakral seçilmişlik keyfiyyəti daşımayan obrazlar olduğunu düşündürür. Bu fərq onu deməyə əsas verir ki, adverənin statusu qəhrəmanın cəmiyyətdəki rolunu və taleyini müəyyənləşdirən əsas amillərdən biri kimi çıxış edir. Beləliklə, advermə aktı yalnız nominativ funksiya daşımır, eyni zamanda qəhrəmanın el içindəki mövqeyini, missiyasını və gələcək fəaliyyət istiqamətini müəyyən edən mühüm semantik və ideoloji yükə malikdir

Dastanlarda qəhrəmana adın elin müdrik ağsaqqalı, dərvişi və ya Xızır peyğəmbər kimi mistik şəxslər tərəfindən verilməsi geniş yayılıb. Qədim mifoloji düşüncəyə görə bir şeyin olması, yaranması üçün ona ad vermək gərəkdir. Bu cəhətdən, Azərbaycan qəhrəmanlıq dastanlarında advermə, əsasən, bir neçə şəkildə özünü göstərir:

- Müdrik qocaların, dərvişlərin verdiyi sakral qırmızı alma ilə dünyaya gəlmiş gələcək igidlərə ad verilməsi;
- Xızır Nəbi tərəfindən ad verilməsi;
- Övliyalar tərəfindən adın verilməsi;
- Qəhrəmanın özünün sosium içində öz adını elan etməsi (Oğuz xaqan) və s.

Advermə ilə bağlı xalq arasındakı deyimlərdə də əcdad kultunun izləri görünür. Şəkinin Göynük kəndində övladından narazı olan valideyn onu: "Ad batırıf, yurd itirənsən" deyə danlayır. Yəni adın batması, ləkələnməsi bütövlükdə yurdun, statusun

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2026
Səh. 457-466

və yurd sahibi olan əcdad ruhu ilə əlaqənin itirilməsi kimi dəyərləndirilir. El arasında biri adını düz deməyəndə: "Adımı düz de, mənə beş çanax düyü töküb, ad qoyublar" deyirlər [11, s-209]. Evin, nəslin ağsaqqalı tərəfindən verilmiş adın qəsdən düz deyilməməsi təhqir hesab olunur və qarşı tərəfdə haqlı olaraq qıcıq yaradır. "Beş çanax düyü tökmək" ifadəsi isə adın elə-belə deyil də, adlandırılacaq uşağın şərəfinə məclis təşkil edib, orada ona ad verilməsinin sübutudur. Bölgədə işlədilən "İgid odur, Aladağda at oynada" və yaxud "Şöhrət at belindədir" deyimləri də müəyyən mənada "Kitabi-Dədə Qorqud" dastanı ilə səsləşməkdədir.

Oğuznamə ənənəsində advermə ilə fərd bir çox statusları qazanmış olur. Bunlar aşağıdakılardan ibarətdir:

- Yeni ad alan oğul igidlik və ərdəmlik statusunu qazanır.
- Bəylik statusunu qazanır.
- Atasının varisi kimi mənsub olduğu tayfanın başçısı olmaq statusunu qazanır.
- Var-dövlət sahibi olur.
- Ad qazanmış oğuz igidləri həm də ərdəmli, hünərli və cəsarətli olurlar.

Dünya nizamını tarazlayan, dünyanı və insanları qaranlıqdan işığa aparan, doğru yol göstərən ilkin əcdad çoxsaylı yaradıcı funksiyaları ilə yeni dünyanın nizamını qurmuş olur. İlk əcdad və onun folklor mətnlərindəki transformativ törəmələri bir sıra xüsusiyyətləri ilə seçilirlər. Belə ki:

- İlkin əcdad möcüzəli şəkildə dünyaya gəlir;
- Bəzən özü özünə ad qoyur (Oğuz xaqan);
- Hökmdarlıq səviyyəsinə qədər ucalır;
- İkin əcdad // qəhrəman özü və xalqı üçün yurd salır, eli el edir;.
- Fəth etdiyi yerlərdə abadlıq işləri görür, şəhərlər salır;
- İgidlərə və xalqlara ad verir;
- Rituallar təşkil edir;
- Xalqı doğru yola çəkir;
- Yeni qanunlar yaradır;
- İnsanlara yaşamağın yollarını öyrədir.

Adlandırma funksiyasını yerinə yetirən obraz ilahi qüvvələrlə bağlı olur. Məsələn, Oğuz "Şəcəreyi-tərakimə"də doğulandan sonra üç gün-üç gecə anasının döşünü əmmir: "Bu uşaq hər gecə anasının yuxusuna girir və deyirdi: "Anacan, müsəlman ol! Əgər olmasan, ölsəm də [belə], [qoy] ölüm, ancaq sənin döşünü əmməyəcəyəm... Doğma anası öz uşağını məhv edə bilmədi və Tanrının təkliyinə iman gətirdi. Bundan sonra o oğlan onun döşünü əmməyə başladı" [2, s. 52].

Oğuz bir əcdad kimi körpəlikdən möcüzəvi xüsusiyyətlərə malik idi. Bütün bunlar onun ilahi mənşəyi ilə bağlı idi. "Şəcəreyi-tərakimə"də göstərilir ki, "Oğuz danışmaq öyrənəndən "Allah, Allah!" kəlməsi dilinin əzbəri idi. Bunu eşidən hər kəs deyirdi: "O – uşaqdır, nitqi olmadığından nə dediyini özü də bilmir". Ona görə ki, "Allah" – ərəb sözüdür, moğollardan heç bir ata da ərəb dilini eşitməmişdir. Tanrı-

təala hələ ana bətnində Oğuzu özünün sevimlisi *(v ə l i)* edibdir, ona görə də onun danışığına və ürəyinə öz adını yerləşdiribdir" "Şəcəreyi-tərakimə"də [2, s. s.54]

**Nəticə:** Beləliklə, "Oğuznamə" dastanı ənənəsində əcdad kultu ilə bağlı aparılmış tədqiqat aşağıdakıları göstərmək olar:

- Oğuzların yaradılış kosmoqoniyasında ilk əcdad Azərbaycan folklorunda ata, dədə, baba kimi məna paradiqmaları yaratmışdır. Bu paradiqmalar Azərbaycan ənənəvi düşüncəsinin, demək olar ki, bütün laylarında fasiləsiz şəkildə yaşamaqda davam etmiş və günümüzə qədər gəlib çıxmışdır. Onlar təhlili göstərdi ki, ata, baba və dədə məna vahidləri nə qədər transformativ dəyişmələrə məruz qalsa da, əcdad kultu ilə bağlı semantika əsas nüvə kimi onların poetik strukturunda öz izini saxlamışdır.
- "Kitabi-Dədə Qorqud"da ozanların piri, bilici, qam//şaman arxetipi ilə bağlı Qorqud obrazı eyni zamanda əcdad kultu ilə bağlıdır.
- Əcdad kultunun məna xətlərindən birini hökmdar paradiqması təşkil edir. Hökmdar və əcdad oğuznamələrdə sinkretik obrazdır və əcdad olmaq hökmdarlığın əsasını və şərtini təşkil edir. Əcdada bağlılıq hökmdarlığın legitimliyinin əsasında durur.
- Oğuznamə ənənəsində rast gəlinən bütün ata-oğul qarşıdurma faktları əcdad kultu ilə bu və ya digər şəkildə bağlıdır. Ata-oğul münasibətlərinin əsasında əcdad-varis arxetip modeli durur.
- Əcdadın adlandırma funksiyası onun mədəni qəhrəman statusuna aiddir və bütün hallarda kosmoqonik məna daşıyır. Yəni əcdad adlandırmaqla bütün hallarda yeni dünyanı yaratmış və nizamlamış olur.

Son olaraq belə nəticəyə gəlmək olar ki, Oğuznamə ənənəsində adlandırma aktı əcdad kultunun mühüm təzahürü kimi çıxış edərək xalqın milli kimliyinin, mənəvi dəyərlərinin və vətənə, müqəddəs torpağa bağlılıq ruhunun nəsildən-nəslə ötürülməsində əvəzsiz rol oynayır.

## Ədəbiyyat

**1.** Bayat F. Advermə / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər Nəşriyyat, 2004, s. 9-11
**2.** Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı). Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı / Əbülqazi Bahadır xan. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002, 146 s., s. 52.
**3.** Əliyev K. "Dədə Qorqud" eposunun poetikasında Dirsə xan oğlu Buğac // "Dədə Qorqud" jur., 2008, – № 2, s. 13-18, s. 15
**4.** Əsgərov İsa İbrahim oğlu, 1958-ci il, Zaqatala rayonunun Qımır kəndi
**5.** Həbibbəyli, İ. "Kitabi-Dədə Qorqud": yazılı epos və ya epopeya / İ.Həbibbəyli. Bakı: Elm, 2020, 278 s. , s. 148
**6.** Kitabi-Dədə Qorqud. Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir / Bakı: Yazıçı, 1988, – 265 s. s. 133-134

**7.** Qabusnamə / Bakı: Qanun, 2020, 303 s. s. 163
**8.** Rzasoy, S. Dədə Qorqud eposu. I kitab. Qəhrəmanın ölüb dirilməsi / Bakı: Elm və təhsil, 2022, 128 s. s. 31
**9.** Seyidov, M. Bəzi abidələrdə və xalq yaradıcılığı nümunələrində adqoyma adətinin qalıqları haqqında mülahizələr // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, V kitab. Bakı: Elm, 1977, 47 s.
**10.** Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları / M.Seyidov. Bakı: Yazıçı, 1983, 326 s, s. 180
**11.** Ləman Süleymanova. XALQ DEYİMLƏRİNİN DÜNƏNİ VƏ BU GÜNÜ .“Kitabi-Dədə Qorqud” və “Şəki-Zaqatala” bölgəsinin dil faktlarının müqayisəsi əsasında) Epos və Etnos beynəlxalq elmi konfransın materialları, Bakı, Elm və təhsil, 2016, 432 s, s-209,
**12.** http://enene.musigi-dunya.az/dastan/koroglu.pdf
**13.** https://www.azadliq.org/a/24208782.html.

## ФУНКЦИЯ НАРЕЧЕНИЯ ПРЕДКА В ОГУЗНАМЕ (В КОНТЕКСТЕ КУЛЬТА ПРЕДКОВ)

### Резюме

***Доктор философии по филологии, доцент***
***Зумруд Ибрагим кызы Мансимова***

В статье рассматривается функцию наречения в традиции “Огузнаме”, помещая её в более широкий контекст мифологического мышления. Утверждается, что наречение представляет собой основополагающий ритуал, посредством которого формируются социальный статус, идентичность и включённость индивида в сообщество. Осуществление наречения как формализованного обряда тесно связано с культом предков и лежащей в его основе символической системой. В эпических памятниках, таких как «Огуз-Каган» и «Китаби-Даде Горгуд» акт наречения глубоко укоренён в практиках почитания предков и осуществляется в соответствии с проявленной героем храбростью и его нравственно-духовными качествами. В этом контексте наречение выходит за пределы простой идентификационной функции, приобретая перформативное и легитимирующее значение в социальной структуре. В исследовании также показано, что право наречения, приписываемое Деде Горгуд и другим сакральным фигурам, обладает как божественной санкцией, так и космогоническим смыслом. Как обряд перехода, церемония наречения знаменует превращение молодого человека в полноправного члена общества, выполняя тем самым важную функцию социальной инициации. Кроме того, на основе фольклорных материалов

анализируется внутренняя связь имени с судьбой человека, а также её символическая соотнесённость с миром предков.

В заключение делается вывод о том, что наречение выступает одним из ключевых механизмов, лежащих в основе формирования космического порядка и социальной иерархии в огузской культуре.

**Ключевые слова:** *культ предков, огузский каган, Деде Горгуд, огузнамефункция именования*

## THE FUNCTION OF NAMES OF ANCESTORS IN OGUSNAMES (IN THE CONTEXT OF ANCESTOR CULT)

**Summary**

**PhD in Philology, Associate Professor,**
**Zumrud Ibrahim gizi Mansimova**

The article investigates the function of naming within the “Oghuzname” tradition situating it within the broader framework of mythological thought. It contends that naming represents a foundational ritual through which an individual’s social status, identity, and incorporation into the community are established. The enactment of naming as a formalized ceremony is closely bound to the ancestor cult and its underlying symbolic system. In epic narratives such as “*Oghuz Kagan”* and “*Kitabi-Dede Gorgud”*, the act of naming is deeply embedded in practices of ancestral veneration and is conferred in accordance with the hero’s demonstrated bravery and moral-spiritual virtues. In this context, naming transcends a mere identificatory function, acquiring a performative and legitimizing role within the social order. The study further demonstrates that the naming authority attributed to Dede Gorgud and other sacral figures embodies both divine sanction and cosmogonic significance. As a rite of passage, the naming ceremony marks the transition of a young individual into a fully recognized member of society, thereby functioning as a key mechanism of social initiation. Furthermore, drawing on folklore materials, the article analyzes the intrinsic relationship between a name and human destiny, highlighting its symbolic linkage to the ancestral realm. In conclusion, the act of naming emerges as one of the principal mechanisms underpinning the construction of cosmic order and the articulation of social hierarchy within Oghuz culture.

**Keywords:** *Ancestor cult, Oghuz Khagan, Dede Gorgud, Oghuzname, naming function*

**Rəyçi: professor Seyfəddin Rzasoy**

***Cap tarixi: 05.04.2026***